**Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi**

№ 169 (1297) 16 sentyabr - 17 sentyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# ADINI, TARİXİNİ UCALDAN BİLƏSUVAR

(Əvvəli ötən sayımızda)

> **"Mən Azərbaycanın hər bir vətəndaşının prezidentiyəm. Bizim məqsəd və məramımız da hər bir vətəndaşımızın daha yaxşı yaşaması və daha yaxşı təmin olunmasıdır".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

**Ölkə regionlarının inkişafı özü-özlüyündə həm də ölkənin dinamik inkişafının göstəricisidi. Yeni Azərbaycanın istənilən bir guşəsi unudularsa və yaxud hansısa bir şəkildə inkişafdan geri qalarsa, bu cəm halında ölkənin özünün inkişaf tempinə, göstəricisinə xələl gətirə bilər. Bu mənada Azərbaycan prezidenti cənab İlham Əliyev ölkənin bütün regionlarının, hətta ən ucqar kənd və obalarının belə müasirləşməsi, yenidən qurulması, inkişaf edib yeni dünyaya qovuşması üçün gərəkli olan bütün tədbirlərin planlı şəkildə gerçəkləşdirilməsinə xüsusi diqqət yetirir. Ona görə də bu gün Azərbaycanın hər hansı bir bölgəsinə səfər edəndə orada diqqəti ilk çəkən tikinti-quruculuq, abadlıq olur. Elə bu mənada Biləsuvarda, daha doğrusu, bu rayonda aparılan abadlıq, tikinti, yenidənqurma işlərini izləmək söylədiyimiz fikri təsdiq etmiş olar.**

Doğurdan da bu gün Biləsuvarda köklü surətdə, özü də planlı şəkildə quruculuq işləri həyata keçirilir. Məhz bu işlərin vaxtında və dinamik aparılmasının bəhrəsidir ki, artıq ötən il həm Biləsuvar şəhərinin özü, həm rayon mərkəzinin özü, həm də rayonun 18 kəndi bütünlüklə qazlaşdırılmışdı.

İndi həmin 18 kəndin hər birində sayğaclar qoyulmuş və sakinlər mavi yanacaqdan rahatlıqla istifadə edə bilirlər. Ən sevindirici hal odur ki, bu istiqamətdə işlər dayandırılmayıb, əksinə, rayonun digər kəndləri və yaşayış məskənləri, o cümlədən Ağayrı, Nərimankənd və Günəşli kəndlərində də qaz xətlərinin çəkilməsi, sayğacların quraşdırılması işləri uğurla davam etdirilir.

Təkcə rayon sakinlərinin qazla bağlı problemlərinin deyil, həm də sosial problemlərinin həlli istiqamətində də Biləsuvarda diqqətçəkən işlərin görülməsi göz önündədi. Həmin işlər arasında xüsusi olaraq elektrik enerjisi təminatı və rabitə məsələsi xüsusilə diqqəti çəkir. Bu sahəyə ayrılmış vəsaitin və diqqətin nəticəsidir ki, bu gün Biləsuvarda demək olar ki, rahatlıqla rabitənin verdiyi bütün imkanlardan, xüsusilə internetdən gen-bol istifadə etmək mümkündür. Çünki həm rayon mərkəzində, həm də rayonun demək olar ki, bütün kəndlərində yeni elektron ATS-lərin quraşdırılması və istifadəyə verilməsi, eləcə də köhnə rabitə xətlərinin tamamilə yeniləşdirilməsi abunəçilərin tam rahatlıqla rabitə xidmətindən istifadə etməsinə şərait yaradıbdı.



Ölkənin cənub bölgəsində yerləşən Biləsuvar rayonunda zaman-zaman problem olan məsələlərdən biri də yol tikintisi ilə bağlı olmuşdu. Amma indi Biləsuvarda hər kəs, eləcə də bu rayona yolu düşən hər bir vətəndaş çəkilən yolların rahatlığından məmnunluqla danışır. Görülmüş işlər adamlara öz rahatlığını bağışlaya bilmişdi. Yeni rayonun əsas yollarını, eləcə də kəndarası yolların təmir-bərpası, yenilənməsi istiqamətində həyata keçirilən işlər nəticəsində 10 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsinin bir-biri ilə əlaqəsini daha da sürətləndirən və rahatlandıran 6 km uzunluğunda Əsgərabad-Muğan-Çaylı avtomobil yolu demək olar ki, başa çatdırılmaq üzrədir.

Bu yolda quraşdırılmış su ötürücüləri, 3 aşırımlı körpü, həmçinin yolun enliliyi demək olar ki, sürücüləri, ümumiyyətlə bu yoldan istifadə edənləri razı salacaqdı. Onu da xatırlatmaq yerinə düşər ki, həmin yolun çəkilişi üçün ölkə prezidenti xüsusi sərəncamla rayon üçün prezidentin ehtiyat fondundan yetərincə məbləğ ayırmışdı. Məhz Azərbaycan prezidenti İlham Əliyev cənablarının digər bir sərəncamı ilə 13 min nəfərin yaşadığı 6 yaşayış massivini bir-biri ilə birləşdirən 16 km uzunluğu olan Günəşli-Ağayarı-İsmətli-Aranlı-Çinarlı-Əliabad avtomobil yolu tam istifadəyə verilmişdi. Yeni bu yolun da tikintisi üçün ölkə prezidentinin ayırdığı vəsaitdən istifadə olunmuş və yol çəkilişi standartlara uyğun aparılmışdı.



Yolla bağlı görülən işlərin sırasında həm küçələrdə, həm də magistral kənarlarında abadlıq işlərinin aparılması da diqqətdən yayınmamışdı.

Xüsusilə yaşıllaşdırma işlərinə böyük diqqət yetirilmiş və nəticədə yolların kənarında həmişəyaşıl olan çoxlu sayda ağacların və gül kollarının əkilməsi təmin edilmişdi.

Biləsuvar şəhər mərkəzindəki ulu öndərimizin adını daşıyan küçədə asfalt örtüyünün yenilənməsi, müasir işıqlandırma sistemlərinin qurulması, üzlük daşlarının, eləcə də bu küçə boyu yerləşən sosial obyektlərin xarici dizayn məsələləri də köklü şəkildə həll olunmuş və bu da rayon mərkəzinə xüsusi bir gözəllik gətirmişdi.

Bir məsələni də xatırlatmaq yerinə düşər ki, Biləsuvarda aparılan tikinti işləri sırasında məktəb, uşaq bağçası, səhiyyə ocaqları da həmişə gündəmdə olubdu. Elə ötən ilin yekunlarına diqqət yetirsək onda məlum olur ki, 2016-cı ildə rayonda xeyli məktəb binası tikilmiş və yaxud da köklü surətdə təmir-bərpa işləri ilə yeniləşdirilmişdi.

Onların arasında 640 şagirdlik 2 saylı Xırmandal kənd orta məktəbi, 450 şagirdlik Aşağı Cürəli kənd orta məktəbi, Amankənd kəndindəki 220 şagird yerlik tam orta məktəb demək olar ki, əsaslı şəkildə yenidən tikilib istifadəyə verilmişdi. Bununla paralel olaraq rayonun Ağəlikənd tam orta məktəbi də köklü şəkildə təmir olunaraq 1176 şagirdin və pedaqoji kollektivin istifadəsinə verilmiş və bu məktəblərdə yaradılmış maddi-texniki baza da ən müasir avadanlıqları özündə birləşdirmişdi. Yeni inventarlar, yeni avadanlıqlar kompüterlə və digər tədris üçün gərəkli olan ləvazimatların hamısı müəllim və şagirdlərin istifadəsinə təqdim edilmişdi.

**Ümumiyyətlə, Biləsuvar rayonunda təhsilə, səhiyyəyə, mədəniyyətə göstərilən qayğı diqqətçəkəndir.**

**(Ardı var)**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ